## AZƏRBAYCAN NEFTÇI GEOLOQLARI CƏMIYYƏTI

## 2013-CÜ İLİN ÜÇÜN HESABAT

Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti 2013-cü il ərzində 284 aktiv üzvü olub onlar cəmiyyətin 2 bölməsində fəaliyyət göstəriblər (ətraflı aspg.az saytından məlumat ala bilərsiniz).

ANGC öz işini təsdiq olunmuş illik proqramı əsasında aparmışdır.

2013-cü il ərzində ANCG-i 6 Büro iclası (15.01.2013; 27.03.2013; 15.04.2013; 20.05.2013; 01.06.2013; 01.11.2013) , 2 Təşkilat komitəsinin görüşü (06.02.2013; 19.02.2013) ,3 aylıq ( 05.02.2013; 26.11.2013; 20.02.2013) və XVIII Tələbə Elmi Konfransı (20.04.2013) iclasları keçirilmişdi.

**Büro iclasları:** Büro iclaslarında əsas müzakirə olunan məsələlər:

- ✓ 2013-cü ilin may ayında keçirləck ANGC-nin 20 illik Yubileyi və bununla əlaqədar təşkilat komitəsinin yaradılması
- ✓ aprel ayında ANGC XVIII Tələbə Elmi Konfransını keçirilməsi
- ✓ 18 noyabr tarixində ANGC-nin və EAGE-nin yerli bölməsinin təşkilatçılığı ilə tələbələr üçün seminarın keçirilməsi
- ✓ EAGE Local Chapterin Londonda iyun ayında keçirilən sərgisində iştirakı
- ✓ 16 saylı Geoloq jurnalının çapı
- ✓ Peşəkar Neft Cəmiyyətləri Mərkəzinin yaradılması
- ✓ ANGC-nin saytının yenilənməsi

**Aylıq iclaslar:** Aylıq iclaslarda müzakirə olunan əsas məsələlər:

ANGC-nin illik hesabatı, 2013-cü-cü il ərzində ANGC-nin fəaliyyəti haqqında, ANGC-nin bürosunda "prezident elect" vəzifəsi daxil edilməsi, ANGC-nin bir sıra bölmələrinə yeni bölmə rəhbərinin seçilməsi, ANGC-nin yenilənmiş saytının təqdimatı, ANGC-nin 2013-cü ilin ştat mələlələr müzakirə olunmuşdur.

25-29 Aprel 2013-cü il tarixində Almaniyanın Berlin şəhərində Tələbə Geoloji Cəmiyyətinin təşkilatçılığı ilə IV Beynəlxalq Yer Elmleri Tələbə Konfransı keçiriləcəyi və ANGC-nin təşəbbüsü ilə Xəzər bölməsi açılması və ANGC-i bir neçə tələbənin konfransda iştirakı üçün xərclərini maliyələşdirmə planları.

26.11.13 tarixində keçirilən aylıq görüş zamanı Bolqariya Sofiya Universitenin professoru Georgiy Georgiyevin və AR "Əməkdar Geoloqu" " Balaxanıneft" NQÇİ-nin baş geoloqu Məmməd Ağdamskinin fəxri üzv seçilməsinin müzakirəsi.

**Seminarlar:** Bundan əlavə tələbələr və mütəxəsislər üçün Lahıc yolunda mezazoy çökntüləri ilə bağlı 2 geoloji çöl ekskursiyası, bp və Shlumberger-in dəstəyi ilə seminarlar keçirildi.

18.11.2013-cü il ANGC-i və EAGE Local Chapterin Təşkilatçılığı ilə "Seismic Fracture Characterization: Concepts and Practical Applications" adlı ingilis dilində bir günlük seminar Enru Liu - (ExxonMobil-Houston, USA) tərəfindən keçirildi. Hər kəsdə böyük maraq doğurmuş və müzakirələrlə başa çatmış seminar geofizikanınn bir hissəsi olan seyismika və eyni zamanda dünyada olan yeniliklər sənayenin müasir problemləri və.s barəsində idi.

**Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin XVIII Tələbə Elmi Konfransı** - Aprel ayının 20-də 2013-cü ildə Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin XVIII Tələbə Elmi Konfransı keçirilmişdir. Çox sayda tələbə arasından 18 tələbə konfransda məruzə ilə çıxış etmişdir. Məruzələrin olduqca maraqlı olduğunu və tələbələrin sual-cavabda yaxşı iştirakını nəzərə alan münsiflər tələbələr arasında fərq qoya bilmirdilər.

Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin illik XVIII Respublika Tələbə Elmi Konfransında yaxşı çıxışlarına görə, fəal bakalavrlar və magistrlar fərqlənmə diplomu, qiymətli hədiyyələr təltif edildilər və ilk yerləri tutan tələbələr Ələkpərov Fərid faiq oğ.( ADNA-nın magistirantı, I kurs) , Qumru Muradova Rabil q( BDU , bakalavr ,VI kurs) ANGC-nin dəstəyi ilə Berlin IV Beynəlxalq Geoelmlər Tələbə Konfransında iştirak etdilər.

25-29 aprel 2013 SEG ilə birgə SGS şirkəti tərəfindən təşkil olunmuş Berlin IV Beynəlxalq Geoelmlər Tələbə Konfransı keçirilmişdir. ANGC-nin təklif ilə əlaqədar yaradılmışdır və Azərbaycandan dörd tələbəƏləkpərov Fərid faiq oğ.( ADNA-nın magistirantı, I kurs) , Rəhimov Fuad Murad oğ. (ADNA magistrant, II kurs) , Qumru Muradova Rabil q( BDU , bakalavr ,VI kurs) və Nərgiz Əskərova Səlim q ANGC-nin icraçı direktoruANGC-nin sponsorluğu ilə konfransda xüsusi aşılmış Xəzər Bölməsində iştirak ediblər.

Konfransdan sonra tələbələr görüş keçirərək öz təəssüratlarını bölüşdülər.

Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti "Lahıc yolundakı geoloji çıxışların kəsilişi və quruluşu" ekskursiya bələdçi kiatbının tərtib edilməsi üçün 2000.00 man qədər məbləğin ayrılıb və tələbə dəstəsinin yaradılmasına başlanıb.

EAGE Local Chapter təşkilatçılığı ilə Azərbaycanda orta məktəb şagirdləri arasında "Neft və mədəniyyət", "Neft və Təbiət" və "Neft və İnkişaf" mövzularında müsabiqənin keçirilməsinə start verilib. Müddeti yanvarın 1-dən martın 1-ə kimidi.

Amerika Neftçi Geoloqlar Assosiasiyasının Azərbaycan Dövlət NeftAkademiyasının tələbə bölməsinin prezidenti Zöhrab Cavadzadə bildirdi ki, AAPG tələbələr üçün geoloji layihələrin keçirilməsinə qrant ayırib. Bizim tələbələrində bu geoloji layihələrdə iştirakına qrant və geoloji kitabların alınmasına qeydiyyat başlandı. Müddəti dekabr ayının axırna kimi.

20.12.2013 tarixində Amerika Neftçi Geoloqlar Assosiasiyasının iclası keşirildi və AAPG-nin Azərbaycan Dövlət NeftAkademiyasının tələbə bölməsinin yeni prezidenti Elnur Abdullayev (ADNA VI kurs) seçildi.

10-13 iyun 2013-ci ildə Avropa Yerlemləri Alimləri və Mühəndisləri Assosiasiyasının təşkil etdiyi ilə 75-cü Konfrans və Sərgisi Londonda baş tutdu. ANGC-nin nümayəndələrinin iştirakı üçün EAGE tərəfindən dəvətnamələr göndərilmişdi. Sərgiyə ANGC-ni təmsil etmək üçün Akif Nərimanov ANGC-nin RK sədri, Qumru Muradova ANGC-nin icraçı katibi və Leyla Əlimuradova –EAGE-nin icarçı katibi iştirak etmışdilər Konfrans və Sərgi AYAMA və SPE EUROPEC birgə təşkilatçılığı ilə ilin ən böyük yer elmləri konfransı olmaqla yanaşı eyni zamanda ən müasir texnologiyalar sərgiləndiyi məkan idi.

Ötən illərdə olduğu kimi Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti “Birləşmiş Cəmiyyətlər” bölməsində öz sərgisi ilə yer alırdı. Sərgidə Avropa Yerlemləri Alimləri və MühəndisləriAssosiasiyasının Azərbaycan bölməsi ilə birgə iştirak edən ANGC, AYAMA-nın yerli bölmələrinin 2012-ci il üçün hesabat iclasında iştirak etmişdir. AYAMA Azərbaycan bölməsinin icraçı katibi Leyla Əlimuradova 2012-ci il üçün illik hesabatı ilə çıxış etmişdir.

ANGC AYAMA-nın 75-cü Konfrans və Sərgisində xüsusi hazırlıq işləri ilə təmsil olunurdu. Bu il ANGC-nin Sərgidəki iştirakı ötən illərə nisbətən daha xüsusi idi çünki 29 may, 2013 - cü il 20 illik yubileyi təntənəli sürətdə qeyd etmişdi və Sərgidə məhz 20 illik fəaliyyət xüsusi olaraq sərgilənirdi. Sərgi müddətində ANGC 20 illik fəaliyyəti əhatə edən Beynəlxalq və Regional Konfranslar, Tələbə Konfransları, çöl ekskursiyaları, geoloqların aylıq görüşlərini, tələbə və mütəxəsislər üçün keçirilmiş seminarları və s. əks etdirən divar kağızları ilə nümayiş olunmuşdur. ANGC tərəfindən nəşrdən çıxmış “Azərbaycan Geoloqu” elmi jurnallarının müxtəlif sayları və aylıq informasiya bülletenləri Sərgi iştirakçılarına təqdim olunmuşdur. Gələcəkdə müxtəlif ölkələrin cəmiyyətləri ilə birgə əmakdaşlığın qurulması istiqamətində ANGC-nin AYAMA-nın 75–ci Konfrans və Sərgisində iştirakı olduqca samərəli idi. Sərgi müddətində də ANGC və AYAMA-nın Azərbaycan bölməsi yeni əlaqələrin və əmakdaşlıqların yaradılması yönündə bir neçə ölkələrin Cəmiyyətləri ilə görüşlər keçirmişdir. Sərginin 3-cü günü AYAMA-nın

Prezidenti Gladys Gonzalez, xarici əlaqələr üzrə nümayəndə Roar van Borselen ANGC-nin stendini ziyarət etdilər və bu zaman ANGC-nin 20 illik fəaliyyəti və hayata keçirdiyi işlərlə yaxından tanış oldular.

**Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin 20 illik yubileyi**

29 may yubileylə bağlı tədbir proqramının hazırladı və bütün üzvlər dəvət edilərək ANGC-nin 20 il ərzində gördüyü işlər haqqında danışıldı .

✓Cəmiyyətin fəaliyyətində akiv rolu olan aşağıdsa sadalalanlar qiymətli hədiyyələrlə təltif olundular:

| | |
|---|---|
| 1.Vaqif Abdullayev | ARDNŞ Geofizika və Geologiya İB- baş direktoru |
| 2.Pavel Zaqoryodnuk | Ukrayna milli Geologiya Cəmiyyətinin sədri |
| 3.Akif Nərimanov | ANGC-nin prezidenti (03.1993-07.1997), 2010-ildən RK sədri |
| 4.Rahib Rəhmənov | ANGC-nin prezidenti (07.2002-06.2004) |
| 5.Əli Süleymanov | ANGC-nin prezidenti (07.2006-06.2008) |
| 6.Firuddin Hacıyev | ANGC-nin prezidenti (01.2008-04.2012) |
| 7.Əhməd Salmanov | ANGC-nin prezidenti (04.2012- ) |
| 8.İbrahim Quliyev | ANGC-nin prezidenti (07.1998-06.2000) |
| 9.Fikrət Babayev | ANGC-nin prezidenti (07.2000-06.2001) |
| 10.Fərid Dadaşov | ANGC-nin prezidenti (07.1997-06.1998) |
| 11.Adil Əliyev | ANGC-nin prezidenti (07.2001-06.2002) |
| 12.Nüsrət Xəlilov | ANGC-nin prezidenti (07.2004-06.2006) |
| 13.Natiq Aliyev | AR-sı Sənaye və Energetika naziri |
| 14.Xoşbəxt Yusifzadə | ARDNŞ-nin I vitse prezidenti |
| 15.Vaqif Qurbanov | ADNA-nın kafedra müdüri |
| 16.Akif Əlizadə | AMEA-nın prezidenti |
| 17.Georqi Georqiyev | Sofiya Universitetin, professoru |
| 18.Qrek Rayli | BpŞirkətin nümayəndəsi |
| 19.Rəşid Cavanşir | Bp Şirkətin nümayəndəsi |
| 20.Mədinə Həsənova | “Vışka” qazetinin baş redaktoru |
| 21.Bəhrəm Hüseynov | ARDNŞ-nin müşaviri |
| 22.Süleyman Qasımov | ARDNŞ-nin vitse prezidenti |
| 23.Xamis Yusifov | ARDNŞ-nin Elmitədqiqatlayihə institunun əməkdaşı |
| 24.Fəxrəddin İsmaylov | ARDNŞ-nin Elmitədqiqatlayihə institunun direktoru |
| 25.Bakir Məhərrəmov | ANGC-vitse-prezidenti |

| | |
|---|---|
| 26.Lyudmila Qafiç | Ukrayna milli Geologiya Cəmiyyətinin sədr müavini |
| 27.Vill Qreys | Shlumberger Şirkətin nümayəndəsi |
| 28.Dorin Bari | OMW Şirkətin nümayəndəsi |
| 29.Xayki Leybold | GDF Şirkətin nümayəndəsi |
| 30.Rasim Axundov | Total Şirkətinin nümayəndəsi |
| 31.Çingiz Xəlifəzadə | ADNA-nın müəllimi |
| 32.Bağır Bağırov | "Azərbaycan Geoloqu" jurnalın redaktoru |
| 33.Səbinə Mövsümova | ANGC-nin icraçı direktoru (1995-2009) |
| 34.Təranə Təhməzova | BDU-nin müəllimi |
| 35.Arzu Cavadova | Bp Şirkətin nümayəndəsi |
| 36.Yusif Şıxaliyev | Geologiya və Geofizika Baş İdarəsinin nümayəndəsi |
| 37.Namiq İsmayılzadə | ANGC-nin Aylıq bülletenin redaktoru |
| 38.Elşən Vəliyev | Shlumberger Şirkətinin nümayəndəsi |
| 39.Naciyə Kuramşina | ANGC-nin təsisçisi, icracı katib (1994-1995) |
| 40.Nigar Sadıqova | ANGC-nin icracı direktor (2010-2011) |
| 41.Sədaqət Əkbərova | ANGC-nin icracı katibi (2010-2012) |
| 42.Leyla Əlimuradova | EAGE –nin icracı katibi |
| 43.Şövqiyyə Məmmədova | Bp- ANGC-nin vitse prezidenti |
| 44.Səidə Mirizadə | "Geologiya Məktəbin" rəhbəri (1998-2004) |

30 may Cəmiyyətin üzvlərin xarici qonaqlara mütaxəssis və tələbələrə Lahıc yolunda mezozoy çöküntülərinin yerüstü çıxışları ilə bağlı geoloji ekskursiya ANGC-nin vitse prezidenti geologiya-mineralogiya elimləri üzrə fəlsəfə doktoru Bakir Məhərrəmov tərəfindən aparıldı. Geoloji ekskursiya qonaqlar tərəfindən maraqla dinləndi və müxtəlif suallarla qarşılandı. 31 may Lahıc kəndində Mezazoy çöküntülərinin neftli-qazlığı ilə bağlı növbəti prezintasiya geologiya-mineralogiya elimləri üzrə fəlsəfə doktoru Xamis Yusifov tərəfindən aparıldı. Prezintasiya çox yüksək səviyyədə və maraqlı fikir mübadiləsi şəraitində keçirildi.